# Dostoyevskaya Anna Qriqoryevnanın xatirələri

**XV hissə**

**əvvəli ötən sayımızda**



Fyodor Mixayloviçlə söhbətlərimizdən hər ikimiz üçün ən vacibi, ən əzizi, əlbəttə ki, gələcək ailə həyatımızla bağlı idi.

Ərimdən heç vaxt ayrılmamaq, işlərində iştirak etmək, sağlamlığını nəzarətim altında saxlamaq, qıcıq verən, zəhlə tökən adamlardan qorumaq haqqında fikirlərim mənə o qədər maraqlı və cəlbedici gəlirdi ki, bütün bunların hələ ki, yaxın zamanda reallaşa bilməyəcəyini düşünəndə ağlamağım gəlirdi. Toyumuz başlıca olaraq "Russkiy vestnik" jurnalı ilə işimizin baş tutmasında asılı idi. Fyodor Mixayloviç Milad bayramında Moskvaya gedib Katkova yeni romanını təklif etmək fikrinə düşmüşdü. 1866-cı ildə çap olunan "Cinayət və cəza" romanın ədəbiyyatda böyük təəssürat yaratması və jurnala çox sayda yeni abunəçiləri cəlb etməsinə görə Fyodor Mixayloviç "Russkiy vestnik"in onunla əməkdaşlıq etmək istəməsinə şübhə etmirdi. Məsələ bircə jurnalın öncədən avans vermək üçün bir neçə min pulunun olub-olamamsı idi. O pullar olmasa bizim yeni həyata başlamağımız müşkül məsələ idi. "Ruskiy vestnik"lə işi uğursuz alındığı təqdirdə Fyodor Mixayloviç "Cinayət və cəza"dan sonra dərhal yeni bir romana başlamaq, böyük bir hissəsini yazandan sonra onu başqa bir jurnala təqdim etməyi düşünürdü. Əgər Moskovada işi rast gətirməsəydi, toyumuz müəyyən vaxta qədər - hətta bir il sonraya qədər təxirə salınmalı olacaqdı. Bunları düşünəndə qanım möhkəm qaralır, dilxor olurdum.

Fyodor Mixayloviç bütün problemlərini mənimlə bölüşürdü. Bunları gələcək həyatımızda qarşılaşacağım çatışmazlıqlara qəfil yaxalanmamaq, indidən görmək, bilmək üçün edirdi. Bu cür səmimi olmasına görə ona minnətdar idim. Və Fyodor Mixayloviçə xüsusilə əzab verən borclarını azaltmaq üçün hər dəfə müxtəlif vasitələr tapırdım. Tezliklə işlərinin indiki vəziyyətində borclarını ödəyə bilməsinin mümkünsüzlüyünü başa düşdüm. Müəyyən qədər imkanları olan ailədə heç nəyə ehtiyacı olmadan böyüdüyüm üçün həyatın praktik tərəfini bir o qədər də yaxşı bilməsəm də toyumuza qədər üç ayda məni əməlli-başlı hiddətləndirən bir şeyə diqqət etdim: Fyodor Mixayloviçin əlinə pul düşən kimi, onun bütün qohum əqrəbasının - qardaşının, gəlinlərinin, oğulluğunun, qardaşı uşaqlarının hamısının birdən gözlənilməz və vacib ehtiyacları yaranırdı. Fyodor Mixayloviçin Moskvadan "Cinayət və cəza"ya görə aldığı üç yüz-dörd yüz rubl puldan səhəri günə cəmi otuz-qırx rubl pul qaldı. Özü də ki, bu pullardan veksel borclarına görə heç bir ödəniş edə bilmir, ancaq faizlərini ödəyirdi. Sonra Fyodor Mixayloviç yenidən borc faizlərini ödəmək, yaşamaq və qohum-əqrəbasının saysız-hesabsız xahişlərini yerinə yetirməkdən ötrü pul tapmaq qayğısına düşürdü. Bu vəziyyət məni əməlli-başlı həyəcanlandırmağa başladı. Mən özümə bütün təsərrüfatı üzərimə götürmək və qohumlarından hər birinə illik müəyyən qədər məbləğ təyin etməyi düşünməklə təsəlli verirdim. Emiliya Fyodorvnanın ona kömək edə biləcək böyük oğlanları vardı. Qardaşı Nikolay Mixayloviç çox istedadlı arxitektor idi. Və əgər istəsəydi işləyə bilərdi. İyirmi bir yaşlı oğulluğu daha xəstə və borc içində üzən atalığına yük olmamalı, hansısa bir işin-gücün qulpundan yapışmalı idi.




Hər zaman pulla bağlı qayğıların Fyodor Mizayloviçin yaxşı əhval-ruhiyyəsinə, sağlamlığına necə pis təsir etdiyini, korladığını gördükcə bütün bu insanlara düşüncəmdə qəzəblənirdim. Xoşagəlməz mütəmadi hadisələrdən əsəbləri pozulur və epileptik tutmaları tez-tez olurdu. Fyodor Mixayloviçin həyatına mən gələnə qədər hər şey belə davam edirdi. Mənsə gələcək birgə həyatımızda onun tamamilə sağalmasını, özünün gümrah, əhvalının həmişə yaxşı olmasını arzulayırdım. Böyük borcları olan Fyodor Mixayloviç jurnallara işlərini özü təqdim etməli olurdu. Və əlbəttə ki, digər imkanlı yazıçılardan - Turgenev və ya Qonçarovdan daha az pul alırdı. Belə ki, "Cinayət və cəza"ya görə Fyodor Mixayloviçə bir çap vərəqinə yüz əlli rubl, eyni jurnalda - "Russkiy vestnik"də Turgenyevə bir çap vərəqinə görə beş yüz rubl ödənilirdi.

Ən pisi isə o idi ki, bitib-tükənməyən borcların sayəsində Fyodor Mixayloviç işini həmişə tez görmək məcburiyyətində olurdu. Əsərlərinə əl gəzdirməkdən ötrü onun nə vaxtı, nə də imkanı qalırdı. Bu da onu çox kədərləndirirdi. Çox zaman tənqidçilər Fyodor Mixayloviçi romanlarının uğursuz formasına, bir romanda bir neçə hadisənin bir-birinin üstünə yığılmasına, bir çox şeyin sonlandırılmamasına görə qınayırdılar. Sərt tənqidçilər, çox güman ki, Fyodor Mixayloviçin hansı şərtlər altında yazmalı olduğundan bixəbər idilər. Bəzən elə olurdu ki, romanın ilk fəsli çap olunur, dördüncüsü yığılırdı, beşincisi poçtla göndəriləndə artıq altıncısı yazılır, qalanlarını isə heç düşünülməmiş olurdu. Dəfələrlə Fyodor Mixayloviçin üstündə əsdiyi hansısa bir ideyanı korladığını və onu daha düzəltmək imkanının olmadığını anlayanda kədərləndiyini, ümidsizliyə qapıldığının şahidi olmuşdum. Adaxlımın ağır maddi vəziyyətinə baxanda bu yaxınlarda - bir il keçib həddi-buluğa çatanda atamın mənə vəsiyyət etdiyi evi alandan sonra köklü şəkildə kömək edəcəyim fikriylə özümə təsəlli verirdim.

Qırxıncı illərin sonlarından valideynlərim Yaroslavki və Kostromski küçələrində yerləşən iki böyük torpaq sahəsinə (iki desyatinə yaxın) sahib idilər. Sahələrdən birində üç taxta fligel və bizim yaşadığımız ikimərtəbəli daş ev vardı. O biri sahədə isə iki taxta ev tikilmişdi. Onlardan biri bacıma cehiz kimi verilmiş, digəri isə mənim üçün nəzərdə tutulmuşdu. Həmin evi satsam əlimə on mindən çox pul gələ bilərdi. Onunla Fyodor Mixayloviçin borclarının bir hissəsini ödəmək fikrim vardı. Amma təəssüflər olsun ki, həddi-buluğa çatmayana qədər əlimdən heç nə gəlmirdi. Anam Fyodor Mixayloviçi mənim qəyyumum olmaq üçün nə qədər dilə tutsa da, o buna qətiyyən razı olmadı.

- O ev Anya üçün nəzərdə tutulub, - deyirdi, - qoy elə özü payızda, iyirmi bir yaşı olanda evi alsın. Onun maddi məsələlərinə qarışmaq istəməzdim.

Fyodor Mixayloviç adaxlı olanda mənim maddi köməkliyimi həmişə geri çevirib. Ona deyirdim ki, əgər biz bir-birimizi seviriksə, onda hər bir şeyimiz ümumi olmalıdır.

- Əlbəttə, evlənəndən sonra belə də olacaq, - cavab verirdi, - amma indi mən səndən heç bir rubl da götürmək istəmirəm.

Düşünürəm ki, qohumlarının ehtiyacının hərdən çox fantastik olmasını Fyodor Mixayloviç də başa düşürdü, amma rədd etmək gücündə olmasa belə, mənim pulumla da onları təmin etmirdi. Hətta cehizlik üçün valideynlərimin nəzərdə tutduğu iki min rubla toxunmaq istəmir, gələcək həyatımızda mənə lazım olacaq şeyləri almağım üçün dilə tuturdu. Fyodor Mixayloviçin yenicə aldığım gümüş çəngəl və bıçaqlara baxmağını, səliqə ilə futlyara yığmağını həmişə sevinc hissiylə xatırlayıram. O həmişə mənim seçimlərimi bəyənir, təqdir edirdi. Və bilirdi ki, tərifləyəndə mən sevincdən parlayıram. Tərifləyir və mənim sevincimə tamaşa edirdi.

Ən çox da yeni paltarlarıma baxmağı sevirdi. Dərzidən paltarlarım gələndə geyinib ona göstərməyə məcbur edirdi. Bəzi paltarlarım (məsələn, albalı rəngli olan) onun elə xoşuna gəlmişdi ki, dəyişməməyimi, axşama qədər həmin paltarda qalmağımı xahiş etmişdi.

Fyodor Mixayloviç, həmçinin şlyapalarımı da başıma qoyub ona göstərməyimi sevirdi. Həmişə də mənə çox yaraşdığını deyirdi. Ümumiyyətlə, o mənə həmişə xoşgələsi, yaxşı sözlər deyir, bununla da məni sevindirməyə çalışırdı. Onun sevən ürəyi nə qədər xeyirxah, nə qədər zərif idi!..

**Rus dilindən tərcümə edən:**
**Xanım Aydın**